*Hümmətova Günel Saleh qızı,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*Email: gunelpeniyeva@mail.ru*

# İ.HÜSEYNOV YARADICILIĞINDA "YENİ NƏSR"in İZLƏRİ

Azərbaycan ədəbiyyatı mövcud şəraitdə, siyasi-ideoloji mühitin təpkiləri altında yoluna davam etsə də, yanaşma və düşüncə fərqlilikləri müxtəlif səviyyələrdə özünü göstərirdi. Bu "yeni nəsr" düşüncəsinə gediləcək yolun keçilməzliyi təsəvvüründən daha çox prosesin əks-təsiri, dönməzliyi kimi məsələləri faktlaşdırırdı. Məsələn, "Yanar ürək" müstəvisində təhlillər aparan və tənqidi fikir sərgiləyən S.Rəhimov "biz ümid edirik ki, "Bizim qızlar" və "Dan ulduzu" kimi dəyərli əsərlərin müəllifi, sovet adamlarının zəngin həyatını əks etdirən yüksək keyfiyyətli yeni əsərlər yaradacaq, "Yanar ürək"də olan səhvlərə bir daha yol verməyəcəkdir" [5] söyləyirdi.

İ.Hüseynov yaradıcılığına ədəbi tənqidin münasibətlərini sərgiləyəndə vurğulanmalı olan yazıçının özünün yaradıcılığına olan mövqeyinin bir sıra müsahibə və məqalələrində olan fikirlərdir. Bu fikirlərlə o, tənqidçilərdə, daha doğrusu özü ilə bağlı mülahizə yürütmüş ədəbi mühitin tənqidindən daha kəskin və parlaq mövqe nümayiş etdirir. Məsələn, "Bizim qızlar", "Dan ulduzu" və s. əsərləri ilə bağlı qiymətləndirmələr müqabilində yazıçı bu əsərləri ya yeni variantda işləməyə qərar verir, ya da imtina edir. "Moskva illərinin mənim dünyagörüşümün formalaşmasında, sənət baxışlarımın zənginləşməsində xüsusi təsiri var. O vaxt hətta "Bizim qızlar" adlı – indi bəyənmədiyim – povestimi yazıb Moskvada nəşr etdirdim" [1]. 50-ci illər ədəbi prosesin ümumi mənzərəsini təsvir edən tənqidçi, yazıçı, ədəbiyyatşünas Elçin "romanlar publisistik nəsr kimi ortaya çıxdı" [4,s.11] qənaətinə gəlir. Müharibədən sonrakı quruculuq işləri, şəhərlərin tikilməsi, əmək yarışmaları, birincilik uğrunda mübarizə, beşillik planların və bu tipli məsələlərin insan həyatında önəmi, sovet həyatının üstünlükləri və s. kimi məsələlər ədəbiyyatın mövzu fakturasında əsas yerlərdən birini müəyyənləşdirirdi. "Sosrealizmdə mövzu arxasında gizlənmək var idi" [4, s.11] Əlbəttə bu cür məqamlar özünə yer alırdı və ancaq bütünlükdə bu tezis böyük ədəbiyyatın mahiyyətini əks etdirmir. Ədəbi prosesin mürəkkəb sferası və onun zəngin məzmun fakturası bir xətt olaraq buna köklənə bilərdi. Sovet rejiminin ideologiya baxımından müəyyən əsərləri təqdir etməsi və onların təbliğinə rəvacı bütünlükdə ədəbi prosesin və ədəbi tənqidin müxtəlif yönlü aspektlərini əhatə etmir. Bədii mühitin dinamikası, yaradıcı axtarışları bunları bir bütöv olaraq daha geniş konseptual yanaşmalarda təhlilə gətirməyi gərəkli edir. "Müharibə qurtardıqdan sonra dinc quruculuq dövründə Azərbaycan yazıçılarının əmək adamlarının həyatına müraciət etməsi, əməyin pafosunun tərənnümü təbii və labüd bir hal idi. Lakin bu o demək deyildi ki, istehsalatdan yazılmış nəsr əsərləri bir növ urbanizmə gəlib çıxsın, texnika və istehsalat prosesi fetişləşdirilərək insanı, onun taleyini, hiss və həyəcanını, düşüncəsini, mənəvi aləmini arxa plana çəksin" [3,s. 190] və nəsr nümunəsini bir tərəfli plan əsasında inkişaf etdirsin.

Keçən əsrin əllinci illər nəsri, ümumiyyətlə ədəbi tənqid və bütünlükdə ədəbi proses əvvəlki onilliklərin problemlərindən, siyasi mühitin xofu, 37-ci illər təhlükəsindən mənən xilas ola bilməmişdi, hələ bunun üzərinə müharibənin və ondan sonranın ictimai-siyasi mənzərəsini də əlavə etdikdə mahiyyət bir qədər də böyüyür. "1930-50-ci illər ədəbiyyatı üçün inqilabi pafos, romantik, mübariz qəhrəman tipi səciyyəvi idi.

Şəksiz ki, müəyyən ictimai həyat həqiqətlərini əks etdirən belə surətlər bədii əsərlərdən tənqidi yazılara keçir, tənqidin “inqilabiliyini”, “çevikliyini”, “quruculuq” missiyasını təmin edirdi. Ədəbi tənqid bu vəziyyətə o dərəcədə öyrənmişdi ki, təsəvvüründə bu qəhrəmanları həyatın atributuna, həqiqətin yeganə meyarına çevirmişdir” [3, s.85]. Doğrudan da, “sovet gerçəkliyini göstərmək adı altında” [3, s.85] bədii cəhətdən elə də mükəmməl olmayan əsərlərin ədəbi sferaya, mətbuat səhifələrinə yol tapması halları da kifayət qədər özünə yer tapırdı.

50-ci illər nəsrinin “milli estetik təfəkkür” baxımından nələrlə şərtləndiyini təhlilə gətirən T.Salamoğlu onun “estetik prinsipləri”nin Moskvanın mənəvi-siyasi partiya – MK-nın mətbəxində hazırlandığını vurğulamaqla bütünlükdə mahiyyəti aydınlaşdırır. Fərdi yazıçı üslubunun, istedadının buradan nələrlə xilas ola biləcəyi isə başqa məsələ idi. Olanların ilk öncə rus ədəbi mühitində “dequstasiya” edildikdən sonra digər yerlərə göndərdiyini, buna görə də “milli təfəkkürün” məhsulu olmadığını vurğulayan tənqidçi milli təfəkkürün hərəkətlilik imkanlarını yazıçı yanaşmalarında və mövqeyində, onun üslub özünəməxsusluğunda axtarmaq məsələsinə toxunur. Çünki mövcud ideologiya “milli təfəkkürün” güclənməsinə əks mövqedə dayanmaqla funksional münasibətin sxemini müəyyənləşdirirdi. Tənqidçi bütün bunlarla yanaşı, 50-ci illər nəsrini Azərbaycan nəsri üçün əhəmiyyətli dövr kimi qiymətləndirir, “yeni nəslin”, “yeni nəsrin” yaranması üçün bir yolayrıcı yolu - “keçid” dövrü kimi təhlil edir. Doğrudan da, 50-ci illər nəsri sovetlər dönəminin 30-cu illərin axarındakı təsəvvürlə qəlibləşməklə bir növ “yolayrıcı”nda görünür və həm də durğunluq təsəvvürü formalaşdırır. Yeni başlanğıcın hərəkətliliyi üçün süstlük zamanını yaşayır.

Məhz İ.Hüseynov da Azərbaycan ədəbiyyatının "yol ayrıcı"nda qalması dövründə bədii nəsrə bir neçə kiçicik hekayələri və iki povesti ilə “müqəddiməsiz, özü də arxa qapıdan səssiz-səmirsiz yox, əsas qapıdan gəldi, özünə arxayın olan, gəlişinə ev sahibinin sevinəcəyinə inanan hörmətli adam kimi. Hamı başını qaldırıb gördü (bu, əllinci illərin əvvəllərində idi) ki, yazıçı İsa Hüseynov gəlib və dərhal da ədəbi aləmin köhnə, aqil, nüfuzlu üzvləri ilə qaynayıb-qarışıb. Bu hələ “Bizim qızlar”, “Dan ulduzu” povestlərini yazanda idi” [1]. Onu da əlavə edək ki, İ.Hüseynovun bu illər ərzində yazdığı “Bizim qızlar” povesti öz orijinal üslubuna görə ədəbi tənqid tərəfindən birmənalı qarşılanmamış və müxtəlif baxış bucaqlarında təhlil faktına çevrilmişdir. “Bizim qızlar”, “Dan ulduzu” dərc olunduğu andan böyük rezonans doğurmuş, mövzu, yazıçı təhkiyəsi, müəyyənləşdirdiyi məzmun baxımından ciddi münasibətləri sərgiləmişdi.

## İstifadə olunmuş ədəbiyyat:

1. Aydın, X.Ə. 75 illik ömrün prozası // Ədəbiyyat . – 2003, 13 iyun. – s. 2.
2. Azəri, S.Ə. Uzaq səfərlər səyyahı. // Ədəbiyyat və incəsənət . – 1979. 13 aprel, –s.6.
3. Elçin. Tənqid və ədəbiyyatımızın problemləri / Elçin. –Bakı: Yazıçı, –1981. – 360 s.
4. Elçin. Sosrealizm bizə nə verdi //–Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Ədəbiyyat və incəsənət seriyası, – 1975. № 2, –s. 11-24.
5. Rəhimov, S.H.Açıq danışaq //Ədəbiyyat və incəsənət. –1957, 5 –17 mart. – s.23-4.